# Bu gün ATU-da Buraxılış Günüdür!


http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 12 (1630) 29 iyun 2016 - cı il Qiymәti 50 qәpik


## Prezident səhiyyə işçilərini mükafatlandırdı



### S.Q.Həbibovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:**

**Tibb elminin inkişafındakı xidmətlərinə görə Sabir Qaçay oğlu Həbibov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.**

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 13 iyun 2016-cı il.**

### Azərbaycan Respublikasının səhiyyə işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:*

*Azərbaycanda səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:*

Babayev Fariz Kamil oğlu
Cəfərli Əhəd Məmməd oğlu
Hüseynova Zərifə Əzizağa qızı
İsmayılova Südabə Nəbi qızı
Məcidova Nigar Zahid qızı
Mustafayeva Zəkiyyə Müslüm qızı
Rəhimov İbrahim İslam oğlu.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 13 iyun 2016-cı il.**

### Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:*

*Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:*

**"Əməkdar həkim"**

Abuzərov Rafiq Mahmud oğlu
Adnayev Sabir Adnayeviç
Ağayev Gündüz Xeyrəddin oğlu
Balakişiyeva Fəxrəndə Kamil qızı
Əliyeva İradə Tofiq qızı
Əliyeva Nigar Ramiz qızı
Hacıyev Tahir İbad oğlu
Hüseynova Edilya Cümşüd qızı
Qarayeva Nailə Ələkbər qızı
Məmmədov Əhəd Süleyman oğlu
Məmmədov Nizami Həsən oğlu
Rəcəbov Fərhad Məzahir oğlu

**"Əməkdar müəllim"**

Əzizova Svetlana Qəşəmovna
İsmayılov Fuad Nadir oğlu

**"Əməkdar tibb işçisi"**

Eldarova Kəmalə Seyidqulu qızı
Əliyeva Fazilə Məhəmməd qızı
Hüseynova Könül Kamil qızı
Seyidova Sevda Mirəli qızı.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 13 iyun 2016-cı il.**


**BU SAYIMIZDA**

## Səhiyyə Nazirliyində Tibb İşçiləri günü qeyd edildi



2

## Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatı dinlənildi 3




## Ben-Gurion Universitetinin nümayəndə heyəti rektor Gəray Gəraybəyli ilə görüşüb 6





## Amerikalı professor Tibb Universitetində qonaq olub 6

**17 iyun - tibb işçilərinin peşə bayramı münasibəti ilə səhiyyə naziri Oqtay Şirəliyev başda olmaqla Səhiyyə Nazirliyinin səlahiyyətli şəxsləri və respublikanın tanınmış tibb işçiləri Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət etmişdir.**

# Səhiyyə Nazirliyində Tibb İşçiləri günü qeyd edildi

Fəxri Xiyabanı ziyarət edən O.Şirəliyev və səhiyyə işçiləri xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə əklil qoyaraq və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri düzərək hər iki şəxsiyyətin xatirəsini dərin hörmət və ehtiramla yad etmişlər.

Daha sonra O.Şirəliyev və səhiyyə nümayəndələri Şəhidlər Xiyabanını ziyarət edərək Vətənimizin suverenliyi və müstəqilliyi uğrunda həlak olmuş şəhidlərimizin məzarı üzərinə və onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklil və gül dəstələri qoymuşlar.

Tədbirin davamı olaraq Səhiyyə Nazirliyində tibb işçilərinin peşə bayramına həsr edilmiş Kollegiya iclası keçirilmişdir. İclasda Bakı və digər şəhər və rayonlarda fəaliyyət göstərən tibb müəssisələrinin rəhbərləri, tanınmış elm və tibb elmi xadimləri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan səhiyyə naziri çıxışında xüsusi vurğulamışdır ki, bu peşə bayramı ulu öndər Heydər Əliyevin Azərbaycan səhiyyəsinə hədiyyəsidir: "Ümummilli liderin 2001-ci ildə imzaladığı Sərəncamla Tibb İşçiləri Gününün təsis etməsi onun həkimlik sənətinə münasibətini, tibb işçilərinin zəhmətinə yüksək dəyər verdiyini göstərir. İndi səhiyyəmizin hər ili, hər ayı irəliləyişlə, yeni-yeni uğurlarla yadda qalır. Ötən bir ilə nəzər salanda deyə bilərik ki, bu dövr Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin sosial yönümlü siyasəti, ölkəmizdəki ictimai-siyasi stabillik, iqtisadi inkişaf sayəsində həm bütün Vətənimiz üçün, həm də ölkə səhiyyəsi üçün uğurlu bir il olub. Səhiyyənin inkişafı, tibb müəssisələrinin yüksək standartlara cavab verən qaydada tikilib istifadəyə verilməsi üçün xeyli vəsait ayrılır. Bu da bir daha səhiyyə sahəsinə olan böyük diqqət və qayğının sübutudur",-deyə nazir bildirmişdir.

Daha sonra O.Şirəliyev tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, ölkədə səhiyyənin inkişafına, əhalinin sağlamlına böyük yer ayrılır: "Ölkə başçısı İlham Əliyev cənabları fəaliyyətinin ilk günlərindən etibarən əhalinin sağlamlığının qorunmasını ölkənin prioritet vəzifəsi kimi müəyyən etdi. Bir neçə il əvvələ nəzər salsaq, tibb müəssisələrində müayinə və müalicə üçün vacib olan avadanlıqlar yox vəziyyətində idi. Bakı şəhərinin ən iri klinikalarında yalnız süni tənəffüs avadanlıqları var idi. Lakin son bir neçə ildə 600-ə yaxın tibb müəssisəsi tikilib, təmir olunub və ən müasir avadanlıqlarla təchiz edilmişdir".

Nazir Təcili Təxirəsalınmaz Tibbi Yardımın işinin nəinki paytaxt Bakıda, eləcə də regionlarda da yüksək səviyyədə qurulduğunu vurğulamışdır. O, əlavə etmişdir ki, qəbul olunmuş və uğurla həyata keçirilən dövlət proqramları bu gün insanların sağlamlığında mühüm yerlərdən birini tutur: "Hazırda 11 Dövlət Proqramı mövcuddur. Səhiyyə sahəsində dövlət proqramları uğurla yerinə yetirilir. Bu proqramlardan biri irsi qan xəstəlikləri ilə mübarizəyə həsr olunmuşdur və bu sahədə ciddi irəliləyişlər var. Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Respublika Talassemiya Mərkəzinin istifadəyə verilməsi ölkəmiz üçün aktual problem olan talassemiya xəstələrinin müalicə imkanlarını genişləndirib. Hazırda bu mərkəzdə 20 minə yaxın uşaq dövlət hesabına müalicə alır. Artıq 30 uşağa yalnız yüksək inkişaf etmiş səhiyyəyə malik ölkələrdə icra edilən sümük iliyi transplantasiyası əməliyyatları icra olunub. Çox sevindirici haldır ki, bu yaxınlarda ancaq yüksək nəticələr əldə etmiş ölkələrə təqdim olunan Avropa Donor Bankına üzvlük statusu Azərbaycana verilmişdir.

İrsi qan xəstəliklərinin profilaktikası baxımından böyük əhəmiyyət kəsb edən nikaha daxil olan hər kəs tibbi müayinədən keçməlidir. Bu zaman onlar İİV infeksiyasına, zöhrəvi xəstəliklərə və talassemiyaya görə müayinə edilirlər. Bu tədbir həm adı çəkilən xəstəliklərlə mübarizədə, həm də gələcəkdə doğulacaq körpələrin sağlamlığı ilə bağlı ciddi irəliləyişlərə nail olmağa imkan verir".



Cənab nazir vurğuladı ki, səhiyyə sahəsində həyata keçirilən bütün dövlət proqramları artıq öz bəhrəsini verir. Dövlət proqramı ilə əhatə olunan bütün xəstəliklər üzrə sağlamlıq və demoqrafik göstəricilər yaxşılaşır.




Ana və uşaq sağlamlığı ilə bağlı diridoğulmanın yeni meyarlarına keçilmişdir. Beynəlxalq səhiyyə təşkilatlarının tövsiyələrinə uyğun olan bu meyarlar müasir dövrün tələbidir: "Azərbaycan səhiyyəsinin bugünkü inkişafı, xüsusiləşdirilmiş tibb müəssisələrinin avadanlıqla təchizatı bizə imkan verir ki, yeni meyarlara uyğun olaraq, vaxtından xeyli tez doğulanların da həyatı uğrunda mübarizə aparaq".

Səhiyyə Naziri daha sonra dünyada problem olan şəkərli diabetdən əziyyət çəkən insanlara dövlət hesabına özünənəzarət aparatların, pompaların, həyati əhəmiyyətli dərmanların dövlət hesabına paylanmasından, habelə böyrək çatışmazlığından əziyyət çəkən insanların hətta bölgələrdə belə həftədə 3 dəfə dializ almaları üçün yaradılan şəraitdən danışdı. Bildirdi ki, hazırda 26-sı bölgələrdə olmaqla 36 Dializ Mərkəzi fəaliyyət göstərir: "Bütün bunlar bir daha ölkə rəhbərliyinin insanların sağlamlığına verdiyi xüsusi diqqət və qayğının nəticəsidir. Ölkəmizdə tibb işçilərinin nəcib və şərəfli əməyi həm əhali tərəfindən, həm də dövlət səviyyəsində həmişə yüksək dəyərləndirilir. Hər il Tibb İşçiləri Günündə ölkə rəhbəri tibb işçilərinin təltif edilməsi barədə sərəncamlar imzalayır. Hər il onlarla həkim, orta tibb işçisi orden və medallara, fəxri adlarla mükafatlandırılır. Bu Peşə bayramı da bizim üçün Azərbaycan Prezidentinin imzaladığı sərəncamlarla əlamətdar oldu. Bu, bir tərəfdən, tibb sahəsində çalışan ən layiqli, ən görkəmli insanların xidmətlərinə dəyər verilməsidir, digər tərəfdən, ümumilikdə tibb işçilərinin əməyinə, bütünlükdə Azərbaycan səhiyyəsinə verilən qiymətdir.

Bir daha sizin hamınızı peşə bayramımız – Tibb İşçiləri Günü münasibətilə təbrik edir, hamınıza uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq dolu həyat, əmin-amanlıq arzulayıram".

Sonra səhiyyə naziri Oqtay Şirəliyev Prezident İlham Əliyevin Sərəncamları ilə "Tərəqqi" medalı, "Əməkdar Həkim", "Əməkdar Müəllim", "Əməkdar Tibb İşçisi" fəxri adları ilə təltif edilən səhiyyə işçilərinin mükafatlarını təqdim etdi.

Səhiyyə Nazirliyinin əmrləri ilə "Səhiyyə əlaçısı" döş nişanı ilə, "Fəxri fərman"la təltif edilən tibb işçilərinin də mükafatları sahiblərinə təqdim olundu.

**Səhiyyə Nazirliyinin mətbuat xidməti**

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ATU işçiləri heyətini tibb işçilərinin peşə bayramı münasibətilə təbrik edib:**

# Gəray Gəraybəyli: «Bu gün bizim üçün ikiqat bayramdır...»

"Bu gün bizim üçün ikiqat bayramdır. Həm belə bir möhtəşəm tədbirin, Formula 1-in ölkəmizdə keçirilməsinə start verilib, həm də ənənəvi olaraq tibb işçilərinin peşə bayramıdır. Məhz bu münasibətlə sizləri və rəhbərlik etdiyiniz kafedraların, şöbələrin işçilərini təbrik edirəm. Bizim universitet tibb işçilərini və müəllimləri birləşdirən yeganə müəssisədir. Bu sırf bizim halal bayramımızdır".







Azərbaycanda səhiyyə sahəsinin ildən-ilə inkişaf etdiyini xatırladan G.Gəraybəyli bunu ölkə rəhbərliyinin səhiyyəyə, tibb işçilərinə daima böyük diqqət və qayğıyla yanaşması ilə əlaqələndirib: "Cənab Prezidentin səhiyyə işçiləri haqqında söylədiyi xoş sözləri yəqin ki, eşitdiniz. Ölkə başçısı bildirdi ki, son 3 ildə 600-dən çox səhiyyə müəssisəsində ya yenidənqurma işləri aparılıb, ya da tam təmir olunub. Bu həddindən artıq böyük bir rəqəmdir. Hətta indi ucqar rayonlardakı klinikalarda da böyük tibbi əməliyyatlar aparılır. Tibb Universitetinin məsuliyyəti də hər gün bir daha artır. Bizim müasir klinikalarımız var, tibb avadanlıqları müntəzəm yenilənir. Lakin bunlar yetərli deyil, əlbəttə ki, əsas bu avadanlıqlarla işləyən mütəxəssislərin olmasıdır. Bu istiqamətdə də bizim işimiz çox önəmlidir".

Xatırladaq ki, Azərbaycan Prezidentinin "Azərbaycanda tibb işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" 2001-ci il iyunun 4-də verdiyi sərəncama əsasən, hər il iyunun 17-si ölkədə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

**ATU-nun mətbuat xidməti**

**❍ İyunun 23-də Böyük Elmi Şura 2015/2016-cı tədris ilinin son iclasını keçirdi.**

**İclası açan universitetin rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri şura üzvlərinin diqqətinə çatdırdıqdan sonra Azərbaycan Tibb Universiteti üzrə 2015/2016-cı tədris ilində Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatı dinlənildi və gənc mütəxəssislərin hazırlanması keyfiyyətinin yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri müzakirə edildi.**



# Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatı dinlənildi



Attestasiya Komissiyasının sədrləri, I müalicə-profilaktika fakültəsi üzrə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun prorektoru, tibb elmləri doktoru Şahin Əliyev, II müalicə-profilaktika fakültəsi üzrə, Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun psixiatriya və narkologiya kafedrasının müdiri, tibb elmləri doktoru, Teymur Qafarov, pediatriya fakültəsi üzrə Ə.Əliyev adına Həkimləri Təkimilləşdirmə İnstitutunun professoru Rəqsanə Məmmədova, stomatologiya fakültəsi üzrə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun stomatologiya kafedrasının dosenti, t.ü.f.d. Həsən Əsədov, əczaçılıq fakültəsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzinin direktor müavini Rüstəm Rüstəmbəyov, hərbi tibb fakültəsi və hərbi tibb məktəbi üzrə Müdafiə Nazirliyinin Hərbi Tibb Baş İdarəsinin rəis müavini, t.x.p. Famil Babayev dövlət imtahanlarının yekunları və nəticələri haqqında ətraflı məlumat verdilər. Komissiya sədrləri hesabat məruzələrində qeyd etdilər ki, kredit sistemi ilə təhsil alan bir sıra ixtisaslar üzrə əczaçılıq fakültəsində buraxılış işinin müdafiəsi, I və II müalicə-profilaktika, pediatriya, stomatologiya və hərbi tibb fakültələrində Yekun Dövlət Attestasiyası yeni Əsasnaməyə uyğun aparılıb. Bu Qaydalar fakültə şuralarında, Mərkəzi Metod Komissiyada və universitetin Böyük Elmi Şurasının iclasında təsdiq olunmuşdur. Qaydalara uyğun olaraq nəticələr 100 ballıq sistemlə qiymətləndirilib. Bütün ixtisaslarda 50 bal praktik bacarıqlardan, 50 bal isə kompyuter vasitəsilə test üsulu ilə imtahanlardan, əczaçılıq ixtisasında isə 50 bal buraxılış işinin hazırlanmasından, 50 bal isə onun müdafiəsi zamanı əldə edilmişdir. Natiqlər nəzərə çatdırdılar ki, kompyuter vasitəsilə test üsulu ilə aparılan imtahanlardan və buraxılş işinin müdafiəsindən əldə olunan bal minimum 17, keçid balı isə 51 hesab olunub.

İmtahanlarda tələbələrin biliklərinin obyektiv qiymətləndirildiyini, builki dövlət imtahanlarında kəmiyyət göstəricisinin 100 %, keyfiyyət göstəricisinin isə 80-85 % arasında təşkil etdiyini söylədilər.

Komissiya sədrləri bildirdilər ki, bu il dövlət buraxılış imhanlarının yüksək səviyyədə keçirilməsi üçün hər cür imkana malik geniş, işıqlı otaqlarda tələbələr obyektivlik şəraitində yüksək bilik nümayiş etdirmişlər. İmtahanların belə yüksək səviyyədə təşkil edilməsinə görə univresitet rəhbərliyinə, şəxsən ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə minnətdarlıq edən komissiya sədrləri, eyni zamanda fakültə dekanlarının da bu kompaniyadakı fəaliyyətlərini yüksək qiymətləndirdilər. Onlar imtahanlar zamanı heç bir narazılığın baş vermədiyini diqqətə çatdırsalar da, gələcəkdə dövlət buraxılış imtahanlarının daha yüksək keçirilməsi üçün öz təklif və rəylərini də bildirdilər.

Hesabat çıxışlarına yekun vuran universitetin rektoru, professor Gəray Gəraybəyli komissiya sədrlərinə imtahanları uğurla başa çatdırdıqları üçün öz təşəkkürünü bildirdi və onların hər birinin çalışdıqları sahədə mahir mütəxəssislər olduğunu bir daha vurğuladı: “Həqiqətən də komissiya sədrlərinin dediyi kimi, dövlət buraxılış imtahanları çox yüksək səviyyədə təşkil olunub. İmtahanların kompyuter sistemi ilə keçirilməsi cəmiyyət arasında bu kompaniya haqqında müsbət fikir formalaşdırıb. İndi sadə insanlar başa düşür ki, tələbə imtahana hazırlaşır və gəlib öz biliyini sərbəst nümayiş etdirir. Kənardan heç bir müdaxilə və qeyri adi hadisə baş vermir. Məhz bunun nəticəsidir ki, imtahanlar zamanı elə bir neqativ hala rast gəlinməyib. Bu il keçirilən imtahanların nəticələrinə gəldikdə isə bütövlükdə elə bir narazılıq qeydə alınmayıb”.

Sonra universitetin tədris hissə müdiri, dosent Nəsimi Qasımov və elmi katibi, professor Hüseyn Qabulovun məruzələri dinləniildikdən sonra şura üzvləri tərəfindən 2016/2017-ci tədris ili üçün universitet üzrə tədris planı və 2016/2017-ci tədris ili üçün ATU-nun iş planı da təsdiqləndi.

Müxtəlif məsələlərdən də söhbət açan rektor bildirdi ki, müasir tibb təhsili heç də donmuş deyil, əksinə bütün ölkələrdə davamlı tibb təhsili sistemi mövcuddur. Tibb Universiteti isə bu davamlı tibb təhsilinin bazasıdır: “Bu il müalicə profilaktika fakültələrində OSKİ sisteminin ən sadə formasını tətbiq etdik. Və tələbələrdən bir sıra maraqlı təklif və rəylər aldıq. Mən onların anonim rəylərini araşdıranda görürəm ki, fikirləri müsbətdir. Lakin hesab edirəm ki, burada həm texniki, həm də digər problemlər mövcuddur. Gələcəkdə bu sistemin istər nəzəri, istər praktiki tərəfini gücləndirmək lazımdır. Bildiyiniz kimi, universitetimizdə uzun illər fəaliyyət göstərən pediatriya fakültəsi bu il son məzunlarını yola saldı. Bu bizim istəyimizlə yox beynəlxalq təcrübənin analizi nəticəsində baş vermişdir. Ancaq bu pediatriya elminin və yaxud ixtisasının ləğv olunması demək deyil, əksinə pediatriya fakültəsində oxuyan tələbələr əvvəllər diqqəti təkcə pediatriya sahəsinə yönəldirdisə, indi onların həkimliyin bütün tərəflərindən xəbərdar olması vacibdir. Yeni tədris ilindən etibarən müalicə fakültələrində terapiya və cərrahiyyə mövzularında pediatriya saatları yerləşdiriləcək. Bu fakültəyə daxil olan kafedraların hansı fakültəyə aid olmasını araşdırıb bölgü aparacağıq. Daha bir məsələyə toxunmaq istəyirəm. Əvvəlki elmi şuranın iclasında da demişəm yenə təkrar edirəm. Bu, kadr problemidir. Mən bu günlərdə 9 əməkdaşı işdən azad etmişəm, 4 nəfər isə yeni tədris ilinə kimi öz həsabına məzuniyyətə göndərilib. İşdən çıxarılan əməkdaşların adı buradadır. Özü isə xarici ölkələrdədir, ya da başqa bir müəssisənin rəhbəri şəklində fəaliyyət göstərir. Mən kafedra müdirlərinin nəzərinə bir daha çatdırıram ki, o adamları axtarın, tapın və universitet rəhbərinin tələbini onlara çatdırın. Əks halda məsuliyyət belələrini gizlədən kafedra müdirlərinin üzərinə düşür və onlara qarşı müvafiq tədbirlər görüləcək”.

Daha bir məsələyə diqqət yönəldən rektor sentyabr ayından başlayaraq I və II kurs tələbələrinə ingilis dilindən dərs deyən müəllimləri təkmilləşdirmək məqsədi ilə universitetin xarici dillər kafedrasında ingilis dili kurslarının təşkil olunacağını vurğuladı: “Biz bu dili tədris edən 200-ə qədər müəllimlə söhbət apararanda məlum oldu ki, onların hamısı heç də ingilis dilini müəllimlik səviyyəsində bilmir. Hesab edirəm ki, biz ya ingilis dili bölməsini ləğv etməliyik, ya da bu sahəni təkmilləşdirməliyik. Gəlin etiraf edək ki, müasir dövrdə bu dili bilmədən nə yaxşı alim, nə də tanınmış mütəxəssis olmaq mümkün deyil.”

Bu və digər məsələlərin rektoryanı və metodik şuralarda müzakirə olunacağını diqqətə çatdıran universitetin rəhbəri sonda professor-müəllim heyətinə mənalı istirahət arzuladı.

Professor Gəray Gəraybəyli çıxışının sonunda şura üzvlərini və eləcə də Dövlət Attestasiya Komissiyasının sədrlərini iyunun 29-da “Gülüstan sarayı”nda keçiriləcək Azərbaycan Tibb Universitetinin növbəti məzun gününə dəvət etdi.

**Mənsur ƏLƏKBƏRLİ**

**Fotolar Cənnətalı ÇİNGİZİNDİR**

# Azərbaycan Tibb Universitetini əla qiymətlərlə başa vuran məzunlarımız

## Tağıyeva Arzu İdrak qızı



1993-cü ildə Rusiya Federasiyasının Novosibirsk şəhərində anadan olub.
2010-cu ildə Bakı şəhəri 20 saylı orta məktəbi əla qiymətlərlə başa vurub, 685 balla ATU-nun müalicə işi fakültəsinə daxil olub. Prezident təqaüdçüsüdür. 2013-cü ildə TEC-də elmi məqalələrlə çıxış edib. 2016-cı ildə II Azərbaycan-Türkiyə-Almaniya konqresində iştirak edib. 2016-cı ildə ATU-nu əla qiymətlərlə bitirib. Arzusu gələckdə xaricdə təhsilini davam etdirib, kardioloq olmaqdır.

## Əliyeva Ülkər Arzu qızı



1992-ci ildə Bakı şəhərində anadan olub. Anası və bacısı həkimdirlər.
2010-cu ildə Binəqədi rayon 102 saylı orta məktəbi bitirərək məktəb 1-cisi olub və həmin ildə 691 balla ATU-nun II müalicə-profilaktika fakültəsinə daxil olub. Topladığı yüksək bala görə prezident təqaüdünə layiq görülüb və 6 il ərzində bütün imtahanlardan "əla" qiymətlər alaraq bu adı qoruamağı bacarıb.
Universitetdə təhsil aldığı illərdə İstanbul Eğitim ve Araştırma Hastanesi, Haseki Eğitim ve Araştırma Hastanelerinde tibbi təcrübə keçib.
Rus, ingilis və fransız dillərini bilir.
Bu il rezidentura üzrə keçirilən imtahanlarda iştirak edərək birinci mərhələdən müvəffəqiyyət əldə edib.
Arzusu daim öz üzərində işləyib, bilik və bacarıqlarını daha da təkmilləşdirmək və xalqın sağlamlığı naminə istifadə etməkdir.
Universitet xatirələrini unutmayacağını deyən Ülkər, hər zaman ona dəstək olan II MPF dekanı Tariel müəllimə və dekan müavini Zabit müəllimə öz təşəkkürünü bildirir.
ATU-nu fərqlənmə diplomu ilə bitirir.

## Seydəliyeva Aydan İlham qızı



1992-ci ildə Qax şəhərində ziyalı ailəsində anadan olub. 1999-cu ildə Bakı şəhəri Xətai rayonu 88 saylı orta məktəbin 1-ci sinfinə gedib. Orta təhsil müddətində dərs əlaçısı olmaqla bərabər, müxtəlif fənn olimpiada və müsabiqələrinin iştirakçısı və qalibi olub. 2008-ci ildə H.Əliyevin 85 illik yubileyinə həsr olunmuş inşa yazı müsabiqəsində Respublika birincisi olub və Yeni Azərbaycan Partiyasının təqaüdünə layiq görülüb. 2010-cu ildə G.Əsgərova adına 200 saylı məktəbi əla qiymətlərlə bitirərək həmin il yüksək balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. Təhsil aldığı müddətdə müxtəlif elmi seminar və konqreslərdə iştirak edib. 2014-cü ildə Hacettepe Universiteti Tibb fakültəsində 4 fərqli ixtisas üzrə iş təcrübəsi keçib. 2015-ci ildə Almaniya-Azərbaycan Tibbi Əməkdaşlıq Cəmiyyətinin (GAMCA) təşkil etdiyi konqresin iştirakçısı olub, həm də konqresin proqramına daxil olan ümumi və vaskulyar cərrahiyyə üzrə treyninq kurslarında iştirak edərək müvafiq sertifikata layiq görülüb. Həmin ildə tələbə və gənc həkimlər üçün keçirilən II Beynəlxalq Tibb Konqresində elmi məruzə ilə çıxış edərək sertifikat alıb. Elmi məruzəsi konqresin əcnəbi həkim qonaqları tərəfindən də maraqla qarşılanıb və iranlı mütəxəssis tərəfindən A.Seydəliyava öz ölkəsinə dəvət alıb. Beynəlxalq dil sertifikatı var (IELTS). 2015-ci ilin oktyabr ayında Vyanada nəşr olunan "Austrian Journal of Technical and Natural Sciences" jurnalında elmi məqaləsi dərc olunub.
Hazırda universiteti fərqlənmə diplomu ilə bitirir. Başlıca arzusu təhsilini xaricdə davam etdirmək, qabaqcıl dünya səhiyyəsinin elmi və təcrübi nailiyyətlərinə yiyələnərək Azərbaycan xalqı qarşısında həkim vəzifəsini şərəflə icra etməkdir.

## Babayeva Gülşən Gülməmməd qızı



1992-ci ildə Bakı şəhərində anadan olub. 2010-cu ildə Nərimanov rayonu BMLK-nın 43 saylı liseyini əla qiymətlərlə bitirib. Orta məktəbdə kimya fənni üzrə olimpiadalarda iştirak edərək I yerə layiq görülüb.
2010-cu ildə TQDK-nın keçirdiyi qəbul imtahanında 695 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub. Prezident təqaüdünə layiq görülən Gülşən 6 il müddətində bütün imtahanlardan əla qiymətlər alaraq bu adı qorumağı bacarıb.
Universitetdə oxuduğu illər ərzində Türkiyənin İstanbul şəhərində tibbi təcrübə keçib.
Arzusu bacarıqlı mütəxəssis kimi yetişmək və Azərbaycan səhiyyəsinin inkişafında öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməkdir.

## Nəcəfova Günel Firudin qızı



1993-cü ildə Gürcusta Respublikasının Marneuli rayonunda anadan olub. 1999-cu ildə Binəqədi rayonu 102 saylı orta məktəbin 1-ci sinfinə gedib. Təhsil aldığı müddətdə məktəbin ictimai işlərində və tədbirlərində fəal iştirak edib, rayon və respublika olimpiadalarında, inşa müsabiqəsində uğurlu nəticələr əldə edib. 2010-cu ildə məktəbi əla qiymətlərlə bitirərək, 655 balla Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə qəbul olub. Tələbə olduğu dövrdə bir sıra konqres və seminarlarda iştirak edib .2012-ci ildə Nəsimi Rayon YAP-ın təşkil etdiyi "Xocalıya ədalət" inşa müsabiqəsində diplomla təltif olunub. 2013 və 2014-cü illərdə İstanbulda Okmeydanı EAH- da yay praktikası keçib.
Məqsədi peşəkar həkim olub, xalqının sağlamlığının keşiyində dayanmaqdır.

## Ağazadə Əfsanə Qüdrət qızı



1995-ci ildə Qəbələ rayonunda anadan olub. 2012-ci ildə Nəsimi rayonu Namiq Məmmədov adına 9 saylı orta məktəbi bitirib.Elə həmin il 606 balla Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinə daxil olub. 2016-cı ildə universiteti fərqlənmə diplomu ilə bitirir.

## Ümidov Ceyhun Mahir oğlu



1992-ci ildə Sumqayıt şəhərində anadan olub. 1999-cu ildə Sumqayıt şəhər M.Füzuli adına 15 saylı orta məktəbin 1-ci sinfinə daxil olub. Dəfələrlə şəhər olimpiadalarında iştirak edib və yüksək yerlərə layiq görülüb. Sumqayıtla Lüdviqşafen şəhərləri arasında olan dostluq tədbirləri çərçivəsində təşkil olunan tədbirlərdə fəallıq göstərərək sertifikatlar alıb. 2010-cu ildə orta məktəbi fərqlənmə ilə bitirərək elə həmin il 655 balla ATU-nun Hərbi tibb fakültəsinə daxil olub. Universitetin elmi-ictimai həyatında aktiv iştirak edərək sertifikatlarla təmin olunub. 2016-cı il həmin fakültəni kurs 1-cisi kimi bitirib və Müdafiə naziri tərəfindən qiymətli hədiyyələr ilə mükafatlandırılıb.
Məqsədi təhsilini GATA-da davam etdirmək, Vətənə döndükdən sonar qazandığı bilik və bacarıqlarla ölkəmizin Silahlı Qüvvələrində layiqincə xidmət etməkdir.

## Qafarlı Səmra Qafar qızı



1993-cü ildə ziyalı ailəsində anadan olub. 2010- cu ildə təhsil aldığı Azərbaycan Dövlət Dəmir Yolu Liseyini fərqlənmə ilə başa vurub. Orta məktəbi bitirdikdən sonra 665 bal toplayaraq Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub.
Məktəb illərində dəfələrlə müxtəlif olimpiadalarda iştirak edərək, rayon və şəhər turnirlərinin qalibi olub və diplomla təltif olunubdur . 2009-cu ildə British Council və Junior Achievement tərəfindən Bakıda təşkil olunmuş "Skills@ Work Challenge" proyektində təqdim etdiyi layihəyə görə, Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin direktoru xanım Nicole la Hausse de Lalouviere tərəfindən sertifikatla təltif edilib. 2001-2008-ci illərdə Ə.Bədəlbəyli adına 23 saylı Musiqi Kollecində əla qiymətlərlə piano ixtisası üzrə təhsil alıbdır.
Aşağı kurslardan etibarən universitetin elmi-ictimai fəaliyyətində, universitetdaxili müxtəlif tədbirlərin təşkilində yaxından iştirak edib. 2015-ci ilin noyabrında keçirilən Tələbə və Gənc Həkimlər üçün II Beynəlxalq Tibb Konqresinin Təşkilat Komitəsində Elmi İşlər üzrə koordinator vəzifəsində çalışıb. Müxtəlif beynəlxalq konqres və simpoziumların həm təşkili, həm də referent qismində iştirak edib. 2015-ci il dekabrın 11-də Kolumbiya Universitetinin Azərbaycan Tibb Universitetində təşkil etdiyi "OMI Satellite Symposium in Diabetes"-in təşkilində iştirakına görə beynəlxalq sertifikatla təltif olunub.2016-cı il aprel ayında Bakıda keçirilən II AGTMC çərçivəsində Beynəlxalq Tələbə və Gənc Həkimlərin Forumunda elmi mövzu ilə çıxış edib. Elə həmin il TEC-də "Robotic vs Laparoscopic surgery" mövzusunda elmi çıxışına görə diplomla təltif olunub.
2015-ci ildən bu günə qədər Azərbaycan Tibb Universitetini İFMSA -Beynəlxalq Tibb Tələbələri Assosiasiyası Federasiyasında Azərbaycan təmsilçiliyi üzrə Tədqiqat Mübadiləsi Koordinatoru kimi təmsil edir.
2015-ci ildə Almanyanın Heidelberg Tibb Universitetində yay təcrübə proqramında iştirak edərək dünya miqyaslı professor və alim heyətinin təcrübələri ilə yaxından tanış olub.
2016-cu ilin iyununda ATU-nu fərqlənmə diplomu ilə bitirib.
İngilis, alman, türk və rus dillərini bilir.
Gələcək hədəflərindən ən birincisi təhsilini xaricdə davam etdirmək, elmi-praktiki biliklərini mükəmməlləşdirərək Azərbaycan səhiyyəsinin inkişafında öhdəsinə düşən vəzifəni yerinə yetirmək və xalqına layiqincə xidmət etməkdir.

## Allahquliyeva Firuzə Arzu qızı



19 dekabr 1993-cü ildə Ağstafa rayonunun Köçəsgər kəndində ziyalı ailəsində anadan olub. 2012-ci ildə Bakı şəhər Yasamal rayonu 53 saylı orta məktəbi fərqlənmə ilə bitirib. Elə həmin il 598 balla Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinə daxil olub. 2016-cı ildə universiteti fərqlənmə diplomu ilə bitirir.

**ATU-nu əla qiymətlərlə bitirən bu məzunların nümunəsində bütün məzunları səmimi qəlbdən təbrik edir, müstəqil həkimlik fəaliyyəti üçün vəsiqə alan gənclərimizə böyük uğurlar diləyirik!**

# AZƏRBAYCAN HƏKİMİNİN ANDI

Ömrüm boyu yüksək həkim adını uca tutacaq, bu peşənin paklığını qoruyacağam. İşə başlayan andan bütün qüvvəmi, bilik və bacarığımı insanların sağlamlığının qorunmasına həsr edəcəyəm.




Peşəm üzrə vicdanla çalışacaq, tibbi yardım göstərməyi özümə borc hesab edərək, bu işə həmişə hazır olacaq, xəstələrə və peşəmlə bağlı təmasda olduğum adamlara yüksək qayğı və diqqətlə yanaşacaq, həkim etikasına həyatım boyu əməl edəcək, həkim sirlərini qoruyacağam.

Aldığım biliklərlə kifayətlənməyəcək, ixtisasıma daha dərindən yiyələnmək üçün daim oxuyub öyrənəcək, bilik və peşə səriştəliyimi dönmədən artıracağam. Həmkarlarımdan öz köməyimi əsirgəməyəcəyəm.

Xalqımın və dövlətimin qarşısındakı məsuliyyət hissini unutmayacaq, böyük Allahın, Müqəddəs Kitabların həkimdən tələb etdiyi şəfqət və mərhəmətini insanlardan əsirgəməyəcəm.Bu anda bütün ömrüm boyu sadiq qalacağıma söz verirəm!

**Dövlət-buraxılış imtahanları artıq sona çatıb. İmtahanların gedişatında obyektivlik və şəffaflıq gözlənilmiş, hər bir tələbənin hazırlaşıb sərbəst cavab verməsi üçün əlverişli şərait yaradılmışdır. İmtahanların nəticələri ilə daha yaxından tanış olmaq, builki məzunlar haqqında statistik məlumatlar almaq üçün I müalicə işi fakültəsinin dekanı, professor Abuzər Qazıyev, II müalicə işi fakültəsinin dekanı, dosent Taryel İsmayılov, pediatriya fakültəsinin dekanı, dosent Nəriman Nağıyev, stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayev, əczaçılıq fakültəsinin dekanı, professor Tahir Süleymanov və hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Fəxrəddin Ağayevlə əlaqə saxladıq.**

# Dövlət imtahanları uğurla başa çatdı

**Abuzər Qazıyev:**



Bu il I müalicə işi fakültəsinin 229 məzunu olacaq. Onlardan 119-u ölkə, 10-u isə xarici vətəndaşlardır.

Məzunlardan 2-si universiteti fərqlənmə ilə bitirir.

Bütün imtahanlar üzrə keyfiyyət göstəricisi 86,46% olub.

**Taryel İsmayılov:**



II müalicə işi fakültəsini bu il 238 nəfər bitirməli idi. Bunlardan 11 nəfəri kredit borcuna görə imtahanlara buraxılmayıb. Hal-hazırda fakültəmizi bitirən 227 nəfər məzunun 3-ü Prezident təqaüdçüsüdür.

Qeyd edək ki, hər iki fakültənin tələbələri cərrahi xəstəliklər, daxili xəstəliklər, mamalıq və ginekologiya fənlərindən dövlət imtahanları veriblər.

**Nəriman Nağıyev:**



Axırıncı kursda 150 tələbəmiz təhsil alır. Onlardan 10 nəfəri aşağı kurslarda kredit borcları olduğuna görə dövlət imtahanına buraxılmayıb. Dövlət hesabına, eyni zamanda ödənişli əsaslarla oxuyaraq təhsil haqqını ödəyən və heç bir akademik borcu qalmayan 140 tələbə isə uşaq xəstəlikləri və uşaq cərrahlığı fənlərindən dövlət imtahanlarını müvəffəqiyyətlə veriblər.

**Zöhrab Qarayev:**



Stomatologiya fakültəsinin V kursda təhsil alan 145 tələbədən 124 nəfəri bütün kreditlərini və müqavilə şərtlərini yerinə yetirdikləri üçün Dövlət imtahanlarına buraxılmışdır. 21 nəfər tələbənin aşağı kurslardan kredit borcu olduğu üçün Dövlət imtahanlarına buraxılmamışdır. Bununla yanaşı 2013/2014-cü il tədris ilindən kredit borcu qalmış 11 tələbədən 3-ü kredit borclarını və təhsil haqlarını tam ödədiyi üçün Dövlət imtahanlarına buraxılmışdır. 2014/15-ci tədris ilindən kredit borcu olan 31 tələbədən 18-i kredit borclarını tam ödədiyi üçün Dövlət imtahanlarına buraxılmışdır. Beləliklə, 145 tələbə 2016-cı ilin Dövlət Attestasiya imtahanlarına buraxılmışdır.

**Tahir Süleymanov:**



2015-2016-cı il Bakalavr pilləsində Buraxılış işlərinin müdafiəsinə buraxılmış 83 tələbədən 83-ü də müdafiəni müvəffəqiyyətlə həyata keçirərək, əczaçı-bakalavr dərəcəsi və ali təhsil haqqında diploma layiq görülmüşlər.

Dövlət Attestasiya Komissiyasının 21 iyun 2016-cı il tarixli yekun protokoluna əsasən Əczaçılıq fakültəsinin 2015-2016-cı il məzunlarının 83 nəfərinə ümumi qaydada Əczaçı Bakalavr Diplomu verilməsi haqda qərar qəbul olunub. Məzunlardan 72 nəfər Azərbaycan vətəndaşı, 11 nəfər isə əcnəbi vətəndaşlardı.

Buraxılış işlərinin müdafiəsi Universitetin əczaçılıq fakültəsinin təmirli, əla rahat mebel, müasir texniki avadanlıqlar ilə təchiz edilmiş, geniş, işıqlı və təmiz auditoriyalarında keçirildi.

Bütün bunlar Buraxılış işlərinin müdafiəsinin həyata keçirilməsinin səviyyəsinin keyfiyyət baxımından yüksək olmasını təmin etdi.

Göstərilənlərlə yanaşı, xüsusilə qeyd etmək istəyirəm ki, bu il Buraxılış işlərinin müdafiəsi əvvəlki illərlə müqayisədə keyfiyyətcə xeyli irəliləyişlərlə müşahidə edilmişdir. Burada həm Buraxılış işlərinin mövzularının müasirliyi və aktuallığı, həmçinin diplom işlərinin tərtibatı, eləcə də tələbələrin işləri daha yaxşı məruzə etməsi və sualları cavablandırması istiqamətində olan müsbət dinamikanı xüsusi qeyd etmək istəyirəm.

Kafedraların reaktiv və avadanlıqlarla təchizatının yaxşılaşması nəticəsində demək olar ki, əksər diplom işlərində eksperimental xarakterli təcrübələrin nəticələri verilirdi.

**Fəxrəddin Ağayev:**



Şəffaflıq və tələbkarlıq şəraitində keçirilmiş imtahanlarda heç bir münaqişə halı yaranmamışdır. Xırda narazılıqlar operativ olaraq Dövlət Attestasiya Komissiyası tərəfindən yerindəcə həll edilmişdir.

Ali Tibb tədris müəssisələrində dövlət imtahanları haqqında "Əsasnamə" və "Gənc mütəxəssislərin dövlət buraxılış imtahanlarının keçirilməsi haqqında" təlimata müvafiq olaraq, Azərbaycan Respublikası Müdafiə nazirinin və Azərbaycan Tibb Universiteti rektorunun müvafiq əmrlərinə əsasən Hərbi Tibb Fakültəsində dövlət buraxılış imtahanları keçirilib.

2015/2016-cı tədris ilində Hərbi Tibb Fakültəsini 71, Hərbi Tibb Məktəbini isə 50 kursant bitirir.

İmtahan biletləri yenidən tərtib olunaraq təsdiqlənmiş, imtahan cədvəlləri vaxtında Dövlət İmtahan Komissiyasının üzvlərinə çatdırılmışdır. İmtahana aidiyyətli kafedralar öz əyani vasitələrini imtahan götürüləcək auditoriyalarda nizami şəkildə yerləşdirmişlər.

Dövlət Attestasiya Komissiyasının sədri Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyevin rəhbərliyi altında imtahanların gedişində obyektivlik və aşkarlıq gözlənilmiş, hər bir kursantın sərbəst hazırlaşıb cavab verməsi üçün şərait yaradılmışdır.

Xatırladaq ki, iki mərhələdə nəzərdə tutulan imtahanların birinci mərhələsi Dövlət İmtahan Komissiyası, ikinci mərhələsi isə ATU-nun Virtual Test Mərkəzində (VTM) test üsulu ilə həyata keçirilib.

**Arif MƏMMƏDLİ**

# Ben-Gurion Universitetinin nümayəndə heyəti rektor Gəray Gəraybəyli ilə görüşüb

**İyunun 23-də İsrailin nüfuzlu Ben-Gurion Universitetinin tibb mütəxəssisləri Azərbaycan Tibb Universitetində qonaq olublar. Xarici professorlar ATU-nun Tədris Cərrahiyyə Klinikasını gəzib, burada tələbələr və xəstələr üçün yaradılan şəraitlə yaxından tanış olublar.**



İsraildən olan qonaqların, həmçinin, Azərbaycan Tibb Universitetinin rəhbərliyi ilə də görüşü baş tutub. Tanışlıq xarakterli görüşdə qarşılıqlı əməkdaşlıq məsələləri, təhsil-tədris planında dəyişikliklər sahəsində təcrübə ilə bağlı müzakirələr aparılıb.

Ben-Gurion Universitetinin Tibb elmləri fakültəsinin rəhbəri, kardiologiya üzrə professor Amos Katz təmsil etdiyi institutun fəaliyyəti, İsraildə tibb təhsili sisteminin quruluşu haqqında məlumat verib. Qeyd olunub ki, burada tibb tələbələri arasında 7 illik baza təhsilindən sonra ixtisas seçimi aparılır. İkinci növ tibbi təhsil isə 4 illik proqram üzrə keçirilir. İngilis dilində olan proqram üzrə təhsil alan tələbələr dünyanın istənilən ölkəsində praktikadan keçə bilərlər.

A.Katz bildirib ki, onlar tərəfindən ictimai səhiyyə və səhiyyənin idarəolunması üzrə məzun proqramları da təşkil olunur: "Bundan əlavə, bizim komandamız təhsil-təlim formasını, tədris planını dəyişdirmək sahəsində də fəaliyyət göstərir". Professor Katz bu məsələlər üzrə Azərbaycan Tibb Universiteti ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirdi.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli İsrail və Azərbaycan tibb təhsili sistemləri arasındakı oxşarlıqlardan danışıb. Azərbaycanda tibb sahəsində ali təhsilin strukturu haqqında məlumat verən rektor qeyd edib ki, rəhbərlik etdiyi universitet xarici əlaqələrin, tələbə və rezidentlərin mübadiləsinin daha da genişləndirilməsində maraqlıdır.

Professor Gəray Gəraybəyli ATU-da mövcud rezidentura sistemi haqqında məlumat verərək bildirib ki, əsas diqqət rezidentlərin praktiki biliklərinin artırılmasına yönəldilir: "İndiyədək Azərbaycan Tibb Universitetinin tələbə və rezidentləri bir sıra xarici ölkələrdə müxtəlif proqramlar üzrə təhsil alıblar, işləyiblər. Lakin bu əlaqələrin daha da genişləndirilməsinə, təcrübə mübadiləsinin artırılmasına ehtiyac var". Rektor bəzi sahələrdə tibb təhsilinə daha modern yanaşma tələb olunduğunu da deyib.

Görüşün sonunda qonaqlara hədiyyələr təqdim olunub, xatirə şəkli çəkilib.

Qeyd edək ki, israilli qonaqlar ATU-nun Stomatoloji, Tədris Terapevtik və Onkoloji Klinikaları ilə də tanış olub, anatomiya muzeyini gəziblər.

1969-cu ildə yaradılan Ben-Gurion universiteti hazırda İsrailin ən böyük təhsil və tədqiqat mərkəzlərindən biri sayılır. Universitetin nəzdində bütün dünya üzrə məşhur olan İrvinq Qoldman adına tibbi məktəb fəaliyyət göstərir. Burada dünyanın hər yerindən tələbələr təhsil alır.

Qeyd edək ki, Azərbaycanda səfərdə olan nümayəndə heyətinin tərkibinə dr. Davıdoviç, dr. Aleks Geffer daxildir. Görüşdə ATU-nun xarici əlaqələr üzrə prorektoru Rəhimə Qabulova və ATU-nun beynəlxalq əlaqələr üzrə şöbə müdiri Nadir Zeynalov iştirak ediblər.

# Azərbaycanlı mütəxəssislər icbari tibbi sığorta üzrə Türkiyə təcrübəsini öyrəniblər

**◆ Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mütəxəssisləri Türkiyənin Sosial Güvənlik Qurumunun dəvəti ilə Ankarada səfərdə olublar.**

Agentliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər müddətində Türkiyənin səhiyyə naziri Rəcəp Akdağ Azərbaycan nümayəndə heyətini qəbul edib. Nazir görüşdə icbari tibbi sığortanın Türkiyədə uzun müddətdir tətbiq olunduğunu bildirib. O, icbari tibbi sığortanın ölkə ərazisində tam şəkildə əhatə olunmasının 2013-cü ildə yekunlaşdığını, bu müddətdə meydana çıxan çətinliklər, icbari tibbi sığortanı tətbiq etmiş digər ölkələrdən üstünlüklər barədə geniş məlumat verib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlər, gələcək planlar barədə söhbət açıb. R.Akdağ Agentliyə gələcək işlərində dəstək verməyə daim hazır olduqlarını bildirib.

Zaur Əliyevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Sosial Güvənlik Qurumunun rəhbərliyi və nümayəndələri ilə də görüşüb. Nümayəndə heyətimiz görüşdə Sosial Güvənlik Qurumu ilə əhali, eləcə də tibb müəssisələri arasında qurulmuş münasibətlərlə tanış olub, Türkiyənin tibbi sığortanın tətbiqi sahəsində təcrübəsini, habelə tibbi sığortanın təşkili sahəsində informasiya texnologiyalarının tətbiqi imkanlarını araşdırıb. Agentliyin mütəxəssisləri ölkəmizdə icbari tibbi sığortanın həyata keçirilməsi üçün müvafiq sahələrdə Türkiyə təcrübəsini öyrəniblər.



# İsrailli mütəxəssislər Tibb Universitetində tədris kurikulumu barədə təqdimatla çıxış etdilər

**◆ Səhiyyə sistemindəki inkişafına görə dünyanın ən qabaqcıl ölkələrindən sayılan İsrailin mütəxəssisləri Azərbaycan Tibb Universitetində mühazirə deyiblər.**



Tədbirdə ATU-nun beynəlxalq işlər üzrə prorektoru Rəhimə Qabulova giriş nitqi ilə çıxış edərək İsraildən təşrif buyurmuş qonaqları auditoriyaya təqdim etdi. Qeyd olundu ki, Ben-Gurion Universitetinin təmsilçiləri 2 gündür ATU-nun qonağıdırlar. Onlar universitetin tədris binaları, klinikaları, tələbə şəhərciyini gəziblər, ATU nəzdindəki tibbi müəssisələrin fəaliyyəti ilə yaxından tanış olublar.

Sonra Ben-Gurion Universitetinin Tibb elmləri fakültəsinin rəhbəri, kardiologiya üzrə professor Amos Katz təmsil etdiyi institut haqqında qısa təqdimatla çıxış etdi.

İştirakçılarda böyük maraq doğuran prezentasiyada universitet haqqında ümumi məlumatla yanaşı, Ben Gurionun tibb elmləri fakültəsinin fəaliyyəti, burada aparılan strateji planlaşdırma barəsində geniş məlumatlar yer almışdı.

Qonaq çıxışının sonunda Ben-Gurion Universitetində mövcud təhsil və tədris sistemi, kurikulum vəziyyətindən danışdı.

Daha sonra ATU-nun tədris hissə müdiri, dosent Nəsimi Qasımov Azərbaycanda tibb təhsili verən yeganə universitetin tədris sistemi haqqında geniş mühazirə ilə çıxış etdi. ATU-nun tədris-metodik innovasiyalar şöbəsinin müdiri, professor Akif Qurbanov isə universitetdə imtahanlara hazırlıq, sınaq prosesinin gedişi və bu il ilk dəfə dövlət imtahanlarında tətbiq edilən OSKİ sistemi haqqında tədbir iştirakçılarını məlumatlandırdı.



Sonda qonaqlar tədbir iştirakçılarını maraqlandıran sualları da cavablandırdılar.

**ATU-nun mətbuat xidməti**

# Amerikalı professor Tibb Universitetində qonaq olub

**İyunun 22-də ABŞ-ın Viskossin ştatının La Crosse universitetinin professoru Robert Jecklin Azərbaycan Tibb Universitetində qonaq olub. ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova ilə görüşdə universitetlər arasında qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.**



Professor Jecklin dünyanın bir çox ölkələrində mövcud olan ictimai səhiyyə proqramının özəlliklərindən danışıb, ictimai səhiyyənin inkişaf yollarından söz açıb. Amerikalı professor Azərbaycan səhiyyəsi üçün aktual olan sahələr, o cümlədən epidemiologiyanın inkişafı naminə birgə layihələrin hazırlanıb işlənməsinə hazır olduğunu bildirib.

Öz növbəsində, prorektor Rəhimə Qabulova da ATU-da bu sahədə mövcud olan praktika haqqında məlumat verib. Onun sözlərinə görə, ictimai səhiyyə proqramı sahəsində xarici ölkələrdə təhsil almış yüksək ixtisaslı azərbaycanlı kadrlar var, lakin onların təlim-tədris prosesinə daha yaxından cəlb edilməsinə ehtiyac duyulur. Xanım prorektor bildirib ki, bu sahədə yeni kadrların yetişdirilməsi üçün mübadilə proqramları çərçivəsində Azərbaycan gənclərinin Avropa universitetləri ilə yanaşı, həm də ABŞ-da təhsil almasında, həm də amerikalı mütəxəssislərin ATU-da ixtisaslaşmış təlimlər aparmasında maraqlıyıq.

Görüş zamanı bu sahədə qarşılıqlı əməkdaşlığın istiqamətləri müzakirə olunub, bir sıra məsələlər üzrə ilkin razılaşmalar əldə edilib.

Görüşdə ATU-nun xarici tələbələrlə iş üzrə dekanı, dosent İsmayıl Əfəndiyev, ATU-nun beynəlxalq əlaqələr üzrə şöbə müdiri Nadir Zeynalov və ATU-nun patoloji anatomiya kafedrasının baş müəllimi Müşfiq Orucov da iştirak ediblər.

## 26 iyun – Azərbaycan Silahlı Qüvvələri Günüdür!

**Azərbaycan xalqı tarixi keçmişdə hərb ənənələrinə malik olmaqla Cavanşirlərin, Babəklərin, Xətai kimi vətənpərvər oğullarının qəhrəmanlıq şücaəti ilə fəxr etmişdir. XX əsrdə iki dəfə müstəqilliyimizin əldə edilməsi, torpaqlarımızın qorunmasında Azərbaycan ordusunun böyük xidmətləri olmuşdur.**



# Azərbaycan ordusu - varislik ənənəsi

1918-ci il mayın 28-də yaradılmış AXC İstiqlal Bəyannaməsində qeyd edirdi ki, ''Azərbaycan özünü xarici müdaxiləçilərdən qorumaq və daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, Silahlı Qüvvələrini yaratmalıdır''. Elə həmin gün Xosrov bəy Sultanov Müdafiə naziri təyin edilib. Amma həmin ilin oktyabrın 6-dan dekabrın 26-a qədər bu vəzifəni İ.Ziyadxanov tutub. Sonrakı dövrlərdə isə artilleriya general-leytenantı Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini, general-leytenant Süleyman Sulkeviç isə Baş Qərərgah rəisi təyin ediliblər. AXC-nin hazırlanmış ordu quruculuğu planına əsasən 1919-cu il noyabrın 1-nə qədər ordunun ən mühüm struktur bölmələri və hissələri – üç polkdan ibarət iki piyada diviziyası, artilleriya diviziyası, teleqrafçı, atlı və pulemyotçu dəstələri, suvari diviziyası, hava dəstəsi və dəmir yol batalyonu yaradılmalı idi.

1918-ci ilin martında hərbi məktəb açıldı və Poruçik Cahangir bəy Zeynalov onun rəisi təyin edildi. Ölkədə vəziyyətin ağır olmasına baxmayaraq iyunun 26- da yaradılan AXC Milli Ordusu iyunun 27-dən - iyulun 1-dək Göyçay yaxınlığında daşnak Şaumyanın Bakı Sovetinə qarşı sınaq döyüşündən alnıaçıq və şərəflə çıxdı. Çar Rusiyası dövründə azərbaycanlılar hərbi məktəblərə qəbul edilmir, ordu sıralarına çağrılmır, yalnız hərbi vergi ödəyirdilər. I Cahan Müharibəsi dövründə Qafqaz atlı diviziyasının tərkibinə daxil olan azərbaycanlılardan ibarət atlı polku mövcud idi.

1918-ci ilin dəhşətli mart hadisələrindən sonra Hərbi Məktəb Gəncəyə köçürüldü, Nuru Paşanın 300 nəfərlik təlimatçı qrupu Osmanlı hərbçilərindən Arif bəy Hərbi Məktəbin rəisi təyin olundu və bundan sonra hərbi təhsil ocağı Praporşiklər Məktəbi adlandırıldı. Məktəbin qəbul norması 100 nəfər olsa da, hərbiçi olmaq istəyənlərin sayı normadan çox idi və onlar yunker adlanırdılar.

1918-ci ilin oktyabrında Gəncə Hərbi Məktəbinin ilk buraxılışı oldu. Dekabrın 1-də bu məktəbin statusu dəyişdirilərək yenidən Praporşiklər Məktəbi adlandı. Sonralar bu məktəbin bazasında hərbiyyə və istehkamçılar məktəbi yaradılaraq Hacıkənddə fəaliyyət göstərdi. Bundan başqa, hərbi dəmiryolçular və hərbi feldşer hazırlayan məktəblər təşkil olunmaqla hərbi zavodlar da fəaliyyətə başladı. Bu məktəblər bütün Azərbaycanı əhatə etməklə orada tam təhsilli hərbi kadrlar yetişdirilirdi. Bundan başqa dekabrın 5-dən Gəncə Dairə Məhkəməsi nəzdində hərbi məhkəmə də fəaliyyət göstərirdi. Xalq Cümhuriyyəti əsgərlərin döyüş hazırlığı ilə bərabər tibbi hazırlığına da xüsusi diqqət yetirirdi. 1918-ci il noyabrın 15-də ümumi qərərgahın tərkibində Hərbi Tibbi İdarə fəaliyyətə başladı. Bakı, Gəncə və Xankəndində hərbi xəstəxanalar təşkil edildi və 1919- cu il yanvarın 22-dən başlayaraq bütün hərbi hissələrin nəzdində iki aylıq sanitar kursları yaradıldı. Belə ki, Hərbi Feldşer Məktəbinə ilk hərbi hazırlıq keçən əsgərlər və xidmətə yararlı 30 yaşadək gənclər qəbul edilirdi. Ordu quruculuğuna mümkün qədər vəsait ayrılırdı. 1919- cu ildə müdafiə xərcləri üçün ümumi büdcənin 27,7 faizi ayrılmışdı. Dövrünün çətinliklərinə baxmayaraq türk zabitlərinin köməyi ilə sayı 40 minə çatan Milli Ordu yaradılsa da, 1920- ci il aprel çevrilişi azərbaycanlılara ordu quruculuğunu yüksək səviyyədə həyata keçirməyə imkan vermədi. 1991- ci ildə Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini qazandıqdan sonra mənfur qonşularımızın torpaqlarımıza olan iddialarının qarşısının alınması məqsədilə Milli Ordunun yaradılması istiqamətində müəyyən işlər görüldü. Amma Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayd ışından sonra bu sahədə irəliyə doğru ciddi addımlar atıldı. Ötən əsrin 70- ci illərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin fəaliyyətə başlaması, Ulu Öndər tərəfindən azərbaycanlı gənclərin SSRİ-nin müxtəlif hərbi məktəblərinə oxumağa göndərilməsi, 1993-cü ildə yaradılan Azərbaycan Ordusunun peşəkar kadrlarla təmin edilməsində mühüm rol oynadı. Məhz Ulu Öndərin səyi nəticəsində 1994-cü ildə Azərbaycan NATO–nun "Sülh naminə tərəfdaşlıq" proqramına, 1996-cı ildən "Planlaşdırma və anailiz prosesi" proqramına, 1997-ci ildə Azərbaycanın bütün hərbi təhsil müəssisələri NATO standartlarına keçmiş, 2004-cü ildə isə dövlətimiz NATO-nun "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı''na qoşulmuşdur.

Hazırda regionda güclü dövlətə və orduya malik olan Azərbaycan Respublikası dünya dövlətləri içərisində özünə layiq yer tutur. Azərbaycan ordusu 98 illik ağır zəhmətin bəhrəsi olaraq arzuladığımız səviyyəyə çatmış və bu gün o, torpaqlarımızın azad edilməsi üçün Ali Baş komandanın əmrini yerinə yetirməyə hazırdı. Bunu son aprel döyüşləri zamanı Milli Ordumuzun qəhrəman əsgər və zabitlərinin düşmənlərə verdiyi layiqli cavab da bir daha sübut etdi. Təmas xəttində təxribat törətməyə cəhd edən Ermənistan qüvvələrinə qarşı ordumuzun uğurlu əks-hücum əməliyyatı keçirməsi nəticəsində işğal altında olan bir sıra strateji yüksəkliklər geri qaytarıldı.

Bütün çıxışlarında ordumuzun qüdrətli və döyüş əzminin yüksək olduğunu xüsusi vurğulayan cənab Prezident İlham Əliyev aprel döyüşlərində böyük şücaət göstərən əsgər və zabitlərimizin mənəvi-psixoloji vəziyyətinin çox müsbət, vətənpərvərlik ruhunun, nizam–intizamın yüksək səviyyədə olduğunu, bütün bu amillərin hərbi gücümüzü daha da artırdığını qeyd edib.

Xalqımız da buna əmindir. Ona görə də hər an xarici müdaxilələrdən bizi qoruyan, ərazi bütövlüyümüzü hər an bərpa etməyə hazır olan öz silahlı qüvvələri ilə fəxr edir. Xalqımız yaxşı bilir ki, güclü ordumuzun olması ölkəmizin müstəqilliyinin və azərbaycançılıq məfkurəsinin zəmanətlərindən biridir.

**Qabil ABDULLAYEV**

# Mahmudova Dilarə Boran qızı

**Bu günlərdə ATU-nun Nevrologiya və tibbi genetika kafedrasının kollektivinə ağır itki üz verib. Kafedranın dosenti Mahmudova Dilarə Boran qızı dünyasını dəyişib.**



D.Mahmudova 1953-cü ildə Bakı şəhərində anadan olub. N.İ.Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunu 1976-cı ildə bitirib. 1976-1980-ci illərdə 2 saylı tibbi sanitariya hissəsində nevropatoloq, 1980-1982-ci illərdə ATU-da klinik ordinator, 1983-1987-ci illərdə aspirant olub, 1987-ci ildə Moskva Dövlət Tibb İnstitutunda "Beynin erkən qan – damar xəstəlikləri zamanı neyrooftalmoloji müayinələr" mövzusu üzrə namizədlik dissertasiyasını müdafiə edib. 1982-1990-cı illərdə 2 saylı BŞX-da nevroloq, 1990-2005-ci illərdə ATU-nun Nevrologiya və tibbi genetika kafedrasında assistent, 2005-ci ildən ömrünün sonuna kimi dosent vəzifəsində işləyib. 2005-ci ildə "Avisenna" medalı ilə təltif olunaraq "Beynəlxalq Loğman" və 2009-cu ildə "Leybnic" medalı və "Avropanın fəxri alimi" adını alıbdır.

Dosent D.Mahmudova doktorluq dissertasiyası üzərində işləyirdi. 2007-ci ildən Avropa (Hannover) Təbii Elmlər Akademiyasının həqiqi üzvü, 1999-cu ildən İnsultla Milli Mübarizə Assossiasiyasının rəhbəri olubdur. 3 metodik tövsiyənin, 78 məqalənin (onlardan 9-u xaricdə), müəllifidir. Ölkədə və xaricdə (Türkiyə və Rusiya) keçirilmiş seminar və konfranslarda iştirak və çıxış edib.

Dosent Dilarə xanım bacarıqlı və səriştəli pedaqoq kimi bütün tələbələrin, uzun illər onunla çiyin – çiyinə işləyən həmkarlarının, gənc həkimlərin və onu tanıyanların yaddaşında daimi yaşayacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!**

*Nevrologiya və tibbi genetika kafedrasının əməkdaşları*

## Ölkəmizdə 45 mindən çox şəkərli diabet xəstəsi qlükometrlərlə təmin olunub

**◆Həyata keçirilən tədbirlər çərçivəsində ölkəmizdə 45 min 154 şəkərli diabet xəstəsi qlükometrlərlə təmin olunub, 14 min 397 xəstə üzərində isə insulin terapiyası xidməti aparılır.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər iyunun 22-də akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında keçirilən "dəyirmi masa"da səslənib.



Tədbirdə qeyd olunub ki, əgər vaxtilə diabetli uşaqlara adi şpris-qələm verilməsi problem idisə, indi onlara dərman insulin pompası vasitəsilə yeridilir. Bu isə körpələri gün ərzində bir neçə dəfə insulin iynəsi vurmaqdan azad edir.

Məlumat verilib ki, hazırda dünyada 300 milyona yaxın insan şəkərli diabetdən əziyyət çəkir. Bu xəstəliyin profilaktikası və müalicəsi vaxtında aparılmasa, çox ciddi fəsadlar törədə bilər. Böyük sürətlə yayılan bu xəstəlik ciddi sosial-tibbi problemlər yaradaraq ölkələrin iqtisadiyyatına, ailələrin maddi durumuna təsir edir. Dünya Səhiyyə Təşkilatının proqnozlarına görə, 2030-cu ilədək diabetdən dünyasını dəyişənlərin sayı iki dəfə arta bilər.

Azərbaycanda şəkərli diabetlə mübarizə istiqamətində mühüm addımlar atıldığı və bu məsələnin qanunvericilikdə də əksini tapdığı diqqətə çatdırılıb. Vurğulanıb ki, "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi buna bariz nümunədir. Bundan əlavə, Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı" ölkəmizdə uğurla həyata keçirilib.

Bununla yanaşı, Nazirlər Kabinetinin qərarı ilə "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı" təsdiq edilib. Dövlət Proqramının əsas vəzifələri şəkərli diabet xəstələrinə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, şəkərli diabet xəstələrinin dərman preparatları, özünənəzarət vasitələri və digər ləvazimatla tam təminatının yaxşılaşdırılması, endokrinoloji xidmətin kadr potensialının gücləndirilməsi, şəkərli diabet xəstəliyinin profilaktikasına və müalicəsinə dair əhalinin maarifləndirilməsidir.

# ATU rəqəmlərin dili ilə



ADP parlementi 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis edilməsi haqda qərar qəbul edib. Universitetin ən böyük fakültələrindən biri tibb fakültəsi olub.

* * *

1920-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin heyətində 12 professor, 2 dosent və 27 assistent çalışmışdır.

* * *

Universitetdə tədris işlərinə ilk azərbaycanlı kadrlar M.Topçubaşov və M.Mirqasımov dəvət edilmişlər.

* * *

1922-ci ildə universitetin ilk buraxılışında 30 nəfər həkim diplomu almışdır. Onlardan yalnız 3 nəfəri azərbaycanlı olmuşdur.

* * *

Azərbaycan Tibb İnstitutunda uzun müddət kafedra müdiri işləyən Adilə xanım Şaxtaxtinskaya (1894-1951) elmlər doktoru adını alan ilk azərbaycanlı mama-ginekoloq qadındır.

* * *

Azərbaycanın ilk qadın elmlər doktoru da tibb mütəxəssisi olmuşdur. Bu, 1929-ci ildə oftalmologiya sahəsində elmlər doktoru adını almış Sona xanım Vəlixandır.

* * *

BDU-nun tibb fakültəsində 10 il ərzində 1407 həkim hazırlanmışdır.

* * *

Azərbaycan Dövlət Tibb İnstitutu Azərbaycan SSR Xalq Komissarları Sovetinin 19 iyun 1930-cu il tarixli qərarı ilə yaradılmışdır.

* * *

Fəaliyyətdə olduğu 10 il ərzində ADTİ-yə (1930-1940) 4733 tələbə qəbul olunmuşdur.

* * *

ATDİ-yə tələbə qəbulu artırılaraq 1970-1980-ci illərdə 1300 nəfərə çatmışdır.

* * *

1980-ci ilin 22 avqusunda yaradılmasının 50 illiyi münasibətilə ADTİ SSRİ Ali Sovetinin fərmanı ilə «Qırmızı Əmək Bayrağı Ordeni» ilə təltif edilmişdir.

* * *

Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə 1991-ci ildə ADTİ Azərbaycan Dövlət Tibb Universiteti statusunu almışdır.

* * *

Universitet 1996-cı ildə dünya ali təhsil müəssisələrinin Beynəlxalq Reyestrinə daxil edilmişdir.

* * *

Öz fəaliyyəti dövründə Tibb Universitetində 10 minlərlə həkim və provizor hazırlanmışdır. ATU ali təhsil sahəsində Avropa İttifaqı, Mərkəzi və Şərqi Avropa ölkələri ilə Şərqi Asiya Ölkələri arasında Tempus Tasis əməkdaşlıq proqramına görə Transavropa əməkdaşlığının üzvüdür.

* * *

25 may 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab Heydər Əliyevin 425 saylı tarixi Fərmanına uyğun olaraq Azərbaycan Tibb Universitetində hərbi-tibbi kadrların hazırlanması məqsədilə Hərbi Tibb Fakültəsi təsis edilmişdir.

* * *

2002-ci ildə ATU Avropa Universitetlər Assosiasiyasına tam hüquqlu üzv qəbul edilmişdir.

* * *

2002-ci ilin sentyabrında ATU-nun ilk klinikası - Stomatoloji Klinika fəaliyyətə başlayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı əsasında Nazirlər Kabinetinin 23 noyabr 2006-cı il tarixli 250 saylı qərarı ilə Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası yaradılıb.

* * *

2007- ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Tibb Universitetinin Tədris - Terapevtik Klinikası yaradlımışdır.

* * *

2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 mart tarixli Sərəncamı ilə Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikası yaradlımışdır.

* * *

18 mart 2010-cu ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 50 saylı qərarı ilə Azərbaycan Tibb Universiteti rezidentura pilləsinə keçib. Fəaliyyətə başladığı 2011-ci ildən indiyədək 255 nəfər gənc həkim-rezidenturanı bitirib.

# “Orucluq və sağlamlıq”




Bəşəriyyətin sonuncu peyğəmbəri Həzrət Məhəmməd (səllallahu əleyhi və alihi və səlləm) buyurmuşdur ki, Ramazan ayına əhəmiyyət verməyən, bu ayda üzünü qibləyə tutmayan, Allaha yalvarmayan və bu aydan bəhrələnməyən şəxslər bağışlanmayacaqlar. Allah-təala Quranda belə buyurmuşdur: “Məni çağırın ki, Mən də sizin duanızı qəbul edim.”

Orucluq Allahın izni ilə bədənimizin bütün sistemlərinə sağlamlaşdırıcı təsir göstərmək qabiliyyətinə malikdir. Ancaq tək sağlamlıq üçün oruc tutmaq məqbul sayılmır. Orucluq insan psixikasına müsbət təsir göstərir və nəticədə insan rahatlıq tapır. Oruc tutan insanın beyni daha güclü işləyir və daha qüvvətli olur. Adi günlərdə insan daha çox qidalandığı üçün orqanizmdə olan bütün qan kütləsi qidanın həzm olunmasına gedir. Burada məqsəd maddələr mübadiləsinin və həzm prosesinin yaxşı getməsidir. Qan beyindən aşağı orqanlara axır və həzm prosesində iştirak edir. Çox yeməkdən sonra insanın yuxusunun gəlməsi də bununla izah edilir. Çox yeyən adamlar daha çox yuxulu və tənbəl olurlar. Ancaq oruc tutan adamda mədə gün ərzində boş qaldığı üçün beyin orqanizmin öz daxili imkanları, qanı hesabına təmizlənir. İnsanın təfəkkürü daha açıq olur, yaddaşı yaxşılaşır, daha sərrast hərəkət edir və danışır. İnsan beyni qanla yaxşı təmin olunur.

Orucluq insan iradəsinin güclənməsi üçün də vacib şərtlərdəndir. İnsan oruc tutmaqla Allaha inamının güclü olduğunu göstərir və gələcək çətinliklərə də hazır olur. İnam çox mühüm psixoloji faktordur. İnam sınanda insan xəstələnir və psixi xəstəliyə daha çox meyilli olur. İnanan adamda güc və iradə olur. İnam insanı həm güclü edir, həm də təmizləyir.

Ümumiyyətlə, orucluq insan orqanizminin sağlamlığına müsbət təsir göstərir. Bu fikrin əsası var. Orucluq Allah tərəfindən insanlara məsləhət bilinibsə, şübhəsiz ki, burada insan sağlamlığı da əsas götürülüb. Söhbət insanın gün ərzində bir dəfə, iki dəfə yemək yeməsindən, yaxud heç yeməməsindən getmir. Allah orucu müəyyən etməklə insanları yaxşı yola dəvət edib. Bu yollardan biri də bədənin sağlamlığını qorumaqdır.

Orucluğun bir ay davam etməsində də bir qanunauyğunluq var. Rəsmi təbabətdə, xüsusilə mədə-bağırsaq xəstəliklərində təsadüfi deyil ki, 24-28 günlük pəhriz təyin olunur. Oruc dalaq, ürək, qan-damar sisteminin yeniləşməsinə, ifrazat sisteminə də müsbət təsir göstərir. İfrazatla bağlı əsas orqan böyrəkdir. Çox qida qəbul edilməsi böyrəyin yükünü artırır. Oruc tutan adamın böyrəkləri dincəlir və bu, onun normal fəaliyyətini gücləndirir.

Məhəmməd Peyğəmbər (s.ə.s.) orucluğun sağlamlığa təsiri ilə bağlı buyurub: “Oruc tutun və siz daha sağlam olacaqsınız.”

Həkimlərin rəyinə görə, orucluq hüceyrələrin immunitet yaradan maddələrini artırmaqla, immun sistemini möhkəmləndirir. Piylənmənin, mədə yarasının yaranmasına ən çox səbəb olan turşuluğun artmasının qarşısını alır. Ac qalmaq orqanizmin enerjisini artırır və onu təlimatlandırır, həmçinin yaddaşı yaxşılaşdırır.

İslam dünyası üçün böyük əhəmiyyət kəsb edən bu müqəddəs günlərdə bütün müsəlman qardaş və bacılarımıza böyük əzm və fədakarlıq diləyir və deyirik:

**Allah orucunuzu qəbul etsin!**

**Hazırladı: Zoheir Mirzacani,**
*Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi - Mədəni və İdman Birliyinin sədri*

## ABŞ-da insan üzərində genetik təcrübələrə icazə verilib

**ABŞ Səhiyyə Departamenti yanında rekombinant DNT üzrə Məşvərət Məclisi Pensilvaniya Universiteti əməkdaşlarının insanlar üzərində genetik modifikasiya təcrübələri aparmaq xahişini bəyənib..**



AZƏRTAC “therus-siantimes.com” saytına istinadla xəbər verir ki, təcrübələr üç məkanda keçiriləcək. Pensilvaniya Universiteti ilə yanaşı, Kaliforniya və Hyuston universitetləri də bu işə cəlb olunacaq. Alimlər CRISPR/Cas9 texnologiyasından istifadə edəcək. Onlar qarşılarına insanın immun hüceyrələrini yaxşılaşdırmaq məqsədi qoyurlar. Bu, melanoma, sarkoma, miyeloma və digər təhlükəli xərçəng xəstəlikləri ilə daha səmərəli mübarizə aparmaq imkanı yaradacaq.

Eksperimentlər üçün artıq 18 könüllü seçilib. Tədqiqatlar 2 il davam edəcək.

CRISPR həmçinin PD-1 geninin fəaliyyətini pozacaq. Bu gen limfositlərin fəallığını zəiflədir. Modifikasiya edilən limfositlər sonradan pasiyentin orqanizminə qaytarılır və şişə fəal həmlələr edir.

İki illik tədqiqatlara cəlb ediləcək 18 könüllü xərçəng xəstəliyinin müxtəlif növlərindən (melanoma, sarkoma, mi-yeloma) əziyyət çəkir. Şişlər mövcud müalicə metodlarına davamlı olmalıdır.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin V kurs, $340^{b}$ qrup tələbəsi Qasımov Omar Zaman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $211^{b}$ qrup tələbəsi Rüstəmova Səidə Rəşad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Rzayev Asəf Zulu oğluna 2002-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyev Azər Xosrov oğluna 1994-cü ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^{c}$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@amu.edu.az**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 317